MUSİQİ DÜNYASI 2/75 2018

# TARİXİ MAHNILAR - ŞİFAHİ ƏNƏNƏLLİ MUSİQİDƏ VƏ BƏSTƏKAR YARADICILIĞINDA

Nailə MİRMƏMMƏDLİ

Azərbaycan ənənəvi musiqisində xalqın həyatını və parlaq musiqi istedadını əks etdirən çox zəngin mahnı janrları formalaşıb. Azərbaycan xalq mahnıları janr xüsusiyyətlərinə görə seçilərək xalq məişətinin müxtəlif cəhətlərini, onun tarixini, dünyagörüşünü əks etdirir. Xalq mahnılarının janr təsnifatında: zəhmət, ənənəvi-mərasim, məişət, tarixi, sosial etiraz, azadlıq hərəkatı və xalq üsyanı və s. mövzularla bağlı mahnılar mövcuddur. Bütün bu mahnı növləri öz məzmununa görə çox zəngindir.

Xalq mahnısı (eləcə də şifahi ənənəli musiqi irsi - muğamlar, aşıq havaları, xalq musiqisi) XX əsrin əvvəllərində Azərbaycanda formalaşan bəstəkar yaradıcılığı üçün bünövrə olmuşdur. Bunu dahi bəstəkarımız Üzeyir Hacıbəylinin yaradıcılığı timsalında aydın görürük. Ü.Hacıbəyli öz əsərlərində xalq mahnılarından geniş istifadə etməklə, onları işləməklə yanaşı, həmçinin xalq mahnılarının janr xüsusiyyətlərindən və melodik-intonasiya quruluşundan bəhrələnərək, yeni əsərlər yaratmışdır. Ü.Hacıbəylinin yaradıcılıq ənənələrini ondan sonrakı nəslin bəstəkarları da davam etdirmişdir.

Eyni zamanda, Üzeyir Hacıbəyli gənc bəstəkarları xalq mahnısından geniş surətdə istifadə etməyə

çağırırdı. O yazırdı: "El mahnılarımız bizim musiqi sərvətimiz və musiqi mənbəyimizdir. Fəqət biz hələ bu sərvət və mənbədən layiqincə istifadə edə bilməmişik..." (1, s.201). O, xalq mahnılarının gələcək nəsillərə ötürülməsinə böyük ehtiyac olduğunu qeyd edərək, onların musiqi təhsilində, musiqi yaradıcılığı və elmində mühüm əhəmiyyətini açıqlamış və öz yaradıcılığında bunun bariz nümunəsini göstərmişdir.

Xalq mahnı janrlarına əsaslanan bəstəkarların mahnı yaradıcılığında yeni cəhətlər özünü göstərir. Məsələn, əmək mahnıları laylay, uşaq mahnıları, lirik mahnılar, tarixi mahnılar bəstəkar əsərlərində də rast gəlinir, onlar oxşar və fərqli xüsusiyyətlərə malikdir (tematika, musiqi dili və s.) ki, bunların araşdırılması məqsədilə bu mövzuya müraciət etmişik.

Xalq mahnılarının müəllifi məlum olmasa da, onların əsas üslub xüsusiyyətləri bəstəkar yaradıcılığında, müəllif əsərlərində özünü göstərir. Məsələn, laylayın, əmək mahnısının, lirik mahnıların və s. xalq və bəstəkar yaradıcılığında ümumi üslub xüsusiyyətlərini qeyd edə bilərik, eyni zamanda, bəstəkar mahnılarında müəllif dəst-xətti, dövrün tələbləri ilə bağlı cəhətlər - tematika, musiqi quruluşu və s. üzə çıxır. Xalq mahnısından fərqli olaraq, bəstəkar yaradıcılığında yeni mahnı janrları da meydana çıxmışdır - vətənpərvərlik mahnıları, himnlər, marşlar, həmçinin, vətənin tərənnümü ilə bağlı mahnılar və s. Ümumiyyətlə, mövzu və janr baxımından xalq və bəstəkar mahnı yaradıcılığında ümumi və yeni cəhətlər özünü göstərir.

Onu da deyək ki, Azərbaycan musiqişünaslığında xalq mahnılarının - janr, musiqi xüsusiyyətləri baxımından - lad, melodika, quruluş xüsusiyyətləri və s. baxımından öyrənilməsi ilə bağlı tədqiqatlar mövcuddur (Üzeyir Hacıbəylidən başlayaraq, Məmmədsaleh İsmayılovun, Rauf İsmayılzadənin, Əfruzə Məmmədovanın, Tahirə Kərimovanın və başqalarının əsərləri bu qəbildəndir). Ayrı-ayrı bəstəkarların mahnılarına həsr olunmuş tədqiqatlar da aparılmışdır (İmruz Əfəndiyeva, Ceyran Mahmudova və b.). Lakin janr-üslub baxımından xalq və bəstəkar mahnıları qarşılıqlı müqayisəli surətdə öyrənilməyib. Bunu nəzərə alaraq, biz bu məqalədə tarixi mahnıların ənənəvi musiqidə və bəstəkar yaradıcılığında janr xüsusiyyətlərinə nəzər salırıq.

Azərbaycan ənənəvi musiqi irsində tarixi mahnılar bilavasitə tarixi hadisələrin təsiri altında yaranaraq, ictimai-siyasi həyatın əsas cəhətlərini özündə əks etdirir. Qədim dövrdən yadelli işğallardan əziyyət çəkən Azərbaycan xalqının həyatı tarixi mahnılarda öz təcəssümünü tapmışdır. Bu kimi mahnıların böyük bir hissəsi öz mövzusuna görə milli-azadlıq hərəkatı, sosial-etiraz, kəndli və xalq üsyanı məzmununu özündə cəmləşdirir və Koroğlu, Qaçaq Nəbi, Qatır Məmməd, Səttərxan və başqa xalq qəhrəmanlarının adı ilə bağlıdır. Bu mahnılar aşıqların və xanəndələrin repertuarında kök salaraq, xalq arasında çox sevilmiş və dillər əzbərinə çevrilmişdir. Tarixi mahnıların yaranmasını onların məzmunundan təyin edərək, konkret bir dövrlə bağlamaq mümkündür. Bu baxımdan tarixi mahnıların inkişaf mərhələlərində xxalq qəhrəmanı Koroğlunun və ya Qaçaq Nəbinin - qaçaqçılıq hərəkatının digər qəhrəmanlarının adı ilə bağlı mahnıları tarixxi mahnı janrının mərhələləri kimi göstərmək olar. Bununla yanaşı, tarixi mahnıların meydana gəlməsi inqilablar və müharibə dövrləri ilə bağlı olmuşdur. Bu baxımdan ənənəvi musiqidə XX əsrin əvvəllərində, I dünya müharibəsi, İran inqilabı, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Mustafa Kamal Paşanın, Səttarxanın adı ilə, eləcə də Türkçülük ideyalarını əks etdirən "Mən bir türkəm", "Salonik marşı" və s. nümunələrin yaranmasını qeyd etməliyik. Tarixi mənbələrdə Xalq Cümhuriyyəti dövründə Azərbaycan milli ordusunun hissələrində oxunan hərbi mahnı-marşların da geniş yayılması haqda məlumatlara rast gəlirik. Bununla belə, deməliyik ki, tarixi mahnıların inkişafı bəstəkar yaradıcılığında daha geniş vüsət kəsb etmişdir.

Azərbaycan bəstəkarlarının mahnı yaradıcılığının tədqiqatçısı, musiqişünas-alim İmruz Əfəndiyeva özünün "Azerbaydjanskaə sovetskaə pesnə" ("Azərbaycan sovet mahnısı") monoqrafiyasında qeyd edir ki, bəstəkar yaradıcılığında mahnıların meydana gəlməsində tarixi şərait böyük rol oynamış, mövzular həyatın tələbindən yaranmışdı. 1920-1930-cu illərdə Azərbaycan bəstəkarlarının mahnı yaradıcılığında mövzusuna görə fərqlənən bir neçə qrup mahnılar formalaşmışdır: 1) hərbi-vətənpərvərlik mahnıları, müdafiə mahnıları (orduya həsr olunmuş mahnılar), mahnı-marşlar; 2) əmək və yeni həyat, yeni insanlar haqqında mahnılar; 3) vətən haqqında mahnılar, mahnı-himnlər; 4) lirik mahnılar; 5) uşaq mahnıları (2, s.20). Bunların janr kökləri xalq mahnıları ilə bağlıdır, bununla belə bir sıra yeni mövzuların, janrların yarandığını da müşahidə edirik. Bütün bu mövzulu mahnılara Ü.Hacıbəylidən başlayaraq, bəstəkarlarımızın yaradıcılığında rast gəlirik.

Xüsusilə Ü.Hacıbəylinin yaradıcılığında tarixi mahnılar yeni məzmun və xüsusiyyətlər kəsb etmiş, vətənpərvərlik mövzusunda mahnılar meydana gəlmişdir. Bu mövzuya həsr olunmuş mahnılar marş və himn janrlarının xüsusiyyətlərini özündə birləşdirdiyinə görə bunları çox zaman mahnı-marş və ya mahnı-himn adlandırırlar. Bu mahnılar əsasən Azərbaycanda baş verən müəyyən ictimai-siyasi hadisələrlə bağlı tarixi dövrlərdə yaranmışdır. 1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikası dövründə Ü.Hacıbəylinin mahnı yaradıcılığının ilk nümunələri olan vətənpərlik mövzusunda mahnı, marş və himn nümunələri meydana gəlmişdir: "Milli marş", "Azərbaycan", "Çırpınırdın Qara dəniz" buna gözəl misaldır.

1920-ci illərin sonu və 1930-cu illərin əvvəllərində Azərbaycan sovet kütləvi mahnılarının ilk nümunələri yarandı. O dövrdə yeni həyat tərzi yeni mahnılar tələb edirdi. Çox vaxt xalq mahnılarının sözlərini müasir həyata uyğunlaşdıraraq oxuyurdular. Bu dövrdə Ü.Hacıbəyli "Komsomolçu qız", "Süvari mahnısı", "Qızıl əsgər marşı" və s. mahnılarını bəstələmişdir ki, bunlar xalq arasında məşhurlaşmışdır. Ü.Hacıbəyli uşaqlar üçün də vətənpərvərlik ruhlu, vətəni tərənnüm edən

mahnı - "Pilotlar" mahnısını yaratmışdır ki, bu da gənc nəslin vətənpərvərlik hisslərinin tərbiyəsində böyük rol oynamışdır. Vətənpərvərlik mahnılarından S.Rüstəmovun "Sərhədçilər mahnısı"nı, T.Quliyevin və Niyazinin "Müdafiə marşı"nı göstərmək olar. Bütün bu mahnılar əsasən marş janrında yazılmışdır.

Üzeyir Hacıbəylinin yaradıcılığında mahnı janrına aid yeni nümunələr 1941-1945-ci illərə - Böyük Vətən müharibəsi dövrünə aiddir: "Vətən ordusu", "Yaxşı yol", "Ananın oğluna nəsihəti", "Şəfqət bacısı", "Döyüşçülər marşı" və s. bu dövrdə meydana gəlmiş vətənpərvərlik ruhlu mahnılardır.

Ümumiyyətlə, mahnı yaradıcılığı sahəsində bu dövrün aparıcı mövzusu vətənpərvərlik mövzusu olmuşdur. Mübarizəyə çağırış, qələbəyə inam əks etdirən mahnılar bu dövrdə çox gur inkişaf dövrü keçirmişdir. Ü.Hacıbəylinin müharibə illərində bəstələdiyi mahnılar bir mövzu - qəhrəmani-vətənpərvərlik mövzusu ətrafında birləşsə də, janr baxımından onlar çox rəngarəngdir. Bu baxımdan müharibə dövrünün mahnılarına nəzər salsaq, görərik ki, burada əvvəlki dövrlərdə də mahnı yaradıcılığı üçün səciyyəvi olan mövzular birinci sırada durur: yüksək vətənpərvərlik, vətənin tərənnümü, işıqlı lirik hisslərin və dərin həyəcanlı duyğuların təcəssümü, zəhmətkeş xalqın əməyi və həyatını əks etdirən mövzular bu qəbildəndir.

Bununla yanaşı, bilavasitə müharibə ilə əlaqədar olan yürüş mahnıları, döyüşçülərin qəhrəmanlığına, cəbhə hadisələrinə həsr olunmuş mahnılar da meydana gəlmişdir. Patriotik mahnılar əsasən səfərbəredici, çağırış ruhlu intonasiyalar üzərində qurularaq, onlarda doğma vətəni qorumaq üçün düşmənə qarşı amansız olmaq çağırışı səslənir. Həmçinin, müharibə dövrünün mahnılarında qəzəb, intiqam hissləri əsas yer tutur və bu mahnılar qətiyyətli, iradəli xarakteri ilə fərqlənir. Müasir dövrdə vətənpərvərlik mahnılarına böyük tələbat vardır və bəstəkar yaradıcılığında bu janr geniş surətdə inkişaf etdirilir.

Beləliklə, Azərbaycan bəstəkarlarının yaradıcılığı xalq musiqisi üzərində yetişərək, xalq mahnılarının janrlarını inkişaf etdirmiş, bu sahəni yeni mövzu və janrlarla zənginləşdirmişdir. Bu gün də Azərbaycan musiqi yaradıcılığında xalq və bəstəkar mahnılarının yanaşı və qarşılıqlı əlaqə şəraitində mövcudluğu onların bu istiqamətdə tədqiqini zəruri məsələ kimi önə çəkir.

## ƏDƏBİYYAT


1. Hacıbəyli Ü.Ə. Seçilmiş əsərləri. B.: 1985. 654 s.
2. Эфендиева И.М. Азербайджанская советская песня. Б.: 1981. 150 s.


### Исторические песни – в традиционной музыке и композиторском творчестве

Автор дает краткую характеристику жанровых особенностей азербайджанских народных песен и рассматривает их влияние на авторские песни. В тезисах отмечается, что аналогичным народно-песенным жанрам, в XX веке в композиторском творчестве возникли новые разновидности исторических песен – патриотические песни, марши, гимны и т.д.

### Historical songs - in traditional music and composer's creativity

The author gives a brief description of genre features of Azerbaijani folk songs and considers their influence on author's songs. In the theses it is noted that similar folk-song genres, in the 20th century, new varieties of historical songs appeared in composer's creativity - patriotic songs, marches, hymns, etc.